# Axır zamanda nə sizin nə də ata-babalarınızın eşitmədiyi şeyləri danışan kimsələr olacaqdır. Onlardan uzaq durun, onları da özünüzdən uzaq tutun

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Axır zamanda nə sizin nə də ata-babalarınızın eşitmədiyi şeyləri danışan kimsələr olacaqdır. Onlardan uzaq durun, onları da özünüzdən uzaq tutun».
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) axır zamanda yalan uyduran, özlərindən öncə kimsənin söyləmədiyi şeyləri söyləyən, yalan və uydurma hədis rəvayət edən kimsələrin çıxacağını xəbər vermişdir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə kimsələrin uydurma sözləri insanların zehninə yerləşib sonra da ondan qurtarmaq çətin olmasın deyə, onlardan uzaq durub, onlarla oturmamağı və onların sözünü dinləməməyi əmr etmişdir.

https://sunnah.global/hadeeth/az/show/65076